**Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti ilə "Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası" İctimai Birliyi arasında 30 dekabr 2021-ci il tarixində Bakı şəhərində imzalanmış "avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalar sahəsi üzrə əməkdaşlıq haqqında" Memorandum əsasında "İcazə" blanklarının və BNF "İcazə"lərinin bölgüsü üzrə fəaliyyətin təşkili haqqında**

# REQLAMENT

## 1. Ümumi müddəalar.

**1.1.** Bu Reqlament Azəbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra – Nazirlik) ilə "Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası" İctimai Birliyi (bundan sonra – ABADA) arasında 30 dekabr 2021-ci il tarixində Bakı şəhərində imzalanmış "avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalar sahəsi üzrə əməkdaşlıq haqqında" Memoranduma (bundan sonra – Memorandum) uyğun olaraq Bölgü Komissiyası tərəfindən görüləcək təşkilati-texniki işlərlə bağlı məsələləri tənzimləyir.

**1.2.** Bölgü Komissiyası daşıyıcıların müraciəti əsasında bu Reqlament ilə müəyyən edilmiş meyarlar əsasında "İcazə" blanklarının və BNF "İcazə"lərinin bölgüsünü həyata keçirir və bölgü haqqında məlumatları Azəbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Avtomobil Nəqliyyatı Xidmətinə (bundan sonra – DANX) təqdim edir.

**1.3.** Bu reqlamentin məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakılardır:

**1.3.1.** Xüsusi defisit "İcazə" blankları – daşıyıcıların tələbatı ilə "İcazə" blanklarının kvota sayı arasında kəskin fərq olan "İcazə" blankları;

**1.3.2.** Defisit "İcazə" blankları – daşıyıcıların tələbatı ilə "İcazə" blanklarının kvota sayı arasında ciddi fərq olan "İcazə" blankları;

**1.3.3.** Qeyri-defisit "İcazə" blankları – "İcazə" blanklarının kvota sayı daşıyıcıların tələbatına uyğun və ya ondan artıq olan "İcazə" blankları.

## 2. Bölgü Komissiyasının işinin təşkili

**2.1.** Bölgü Komissiyası ABADA-nın təşkilati imkanlarından istifadə etməklə aşağıdakı istiqamətlər üzrə fəaliyyət göstərir:

**2.1.1.** Azərbaycanın və regionun avtomobil nəqliyyatı ilə beynəlxalq daşımalar bazarının təhlili;

**2.1.2.** "İcazə" blanklarına və BNF "İcazə"lərinə olan tələbatın müəyyənləşdirilməsi məqsədilə yerli avtodaşıyıcılarla sorğuların keçirilməsi;

**2.1.3.** yerli avtodaşıyıcılardan daxil olan məlumatların təhlili, ümumiləşdirilməsi və zəruri məlumatların DANX-a təqdim olunması;

**2.1.4.** "İcazə" blanklarının və BNF "İcazə"lərinin bölgüsünün aparılması və bu barədə məlumatların DANX-ya təqdim olunması.

**2.2.** Bölgü Komissiyası ayda bir dəfədən az olmayaraq toplanır.

**2.3.** Bölgü Komissiyası üzvlərinin yarısından çoxunun iştirak etdiyi iclas səlahiyyətli sayılır.

**2.4.** Bölgü Komissiyasında qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir məsələ həll edilərkən Bölgü Komissiyası üzvlərinin heç biri səsvermədə bitərəf qala bilməz. Sədr axırıncı səs verir. Səslərin sayı bərabər olduqda sədrin səsi həlledici sayılır.

**2.5.** Bölgü Komissiyasının iclasları protokollaşdırılır. Bölgü Komissiyasının qəbul etdiyi qərarlar protokoldan çıxarış formasında Nazirliyə və/və ya DANX-a təqdim olunur.

**2.6.** ABADA Bölgü Komissiyasının cari işlərinin həyata keçirilməsi məqsədilə özünün maddi-texniki bazasından, işçi heyətindən istifadəyə imkan yaradır.

**2.7.** Bölgü Komissiyası DANX və ABADA ilə razılaşdırılmaqla beynəlxalq daşımalar bazarı ilə bağlı zəruri biliklərə və informasiyaya malik şəxsləri səs hüququ olmadan iclaslarına cəlb edilə bilər.

**2.8.** ABADA Bölgü Komissiyasının iclaslarına daşıyıcıları müşahidəçi qismində dəvət edə bilər.

## 3. "İcazə" blanklarının bölgüsünün təşkili.

**3.1.** Daşıyıcılar "İcazə" blanklarının bölgüsündə iştirak etmək üçün qeydiyyata alınırlar. Bu məqsədlə onlar aşağıdakı məlumatları təqdim edirlər:

**3.1.1.** Daşıyıcı hüquqi şəxs olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti;

**3.1.2.** fiziki şəxs olduqda, şəxsiyyət vəsiqəsinin surəti;

**3.1.3.** vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

**3.1.4.** daşıyıcının mülkiyyət, icarə və ya istifadə hüququ ilə malik olduğu avtonəqliyyat vasitələri barədə məlumatlar (dövlət qeydiyyat nişanı, markası, modeli, tipi, buraxılış ili, ekoloji sinifi (əgər mövcuddursa), icazə verilmiş maksimum kütləsi, yüksüz kütləsi, yük bölməsinin növü);

**3.1.5.** barəsində məlumat təqdim olunan avtonəqliyyat vasitələrindən hər biri üzərində daşıyıcının mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənədin surəti.

**3.2.** Qeydiyyata alınan daşıyıcılar "İcazə" blanklarının bölgüsündə iştirak etmək üçün ABADA-ya hər ayın 20-nə qədər Ərizə ilə müraciət edir və növbəti ayda istifadə edilməsi nəzərdə tutulan "İcazə" blanklarının sayı və növləri barədə məlumatları təqdim edirlər. Daşıyıcılar müraciəti elektron poçt (icaze@abada.az elektron poçt ünvanına və ya ABADA tərəfindən müəyyən edilmiş digər elektron poçt ünvanına) vasitəsilə elektron qaydada, yaxud şəxsən təqdim edə bilərlər.

**3.3.** Aşağıdakı hallarda daşıyıcının müraciətinə baxılmır:

**3.3.1.** Daşıyıcı bu Reqlamentin 3.1-ci bəndinə uyğun qeydiyyatda olmadıqda;

**3.3.2.** Daxil olan məlumatların təhlili nəticəsində müraciət edən daşıyıcının aktiv fəaliyyətdə olmadığı aşkar edildikdə;

**3.3.3.** "İcazə" blanklarına olan tələbatı barədə ərizə müəyyən edilmiş müddətdən gec təqdim edildikdə (ilk dəfə müraciət edən daşıyıcılar istisna olmaqla).

**3.4.** Bölgü Komissiyası bu Reqlamentin 2.1-ci bəndində qeyd edilmiş fəaliyyət istiqamətləri üzrə əldə etdiyi məlumatlar əsasında daşıyıcıların "İcazə" blanklarına olan tələbatı barədə məlumatları hər ayın 20-nə kimi DANX-a təqdim edir. DANX bölgünün keçirilməsinə ən azı 3 gün qalmış Bölgü Komissiyasını növbəti ayda bölgüyə çıxardılacaq "İcazə" blanklarının sayı haqqında məlumatlandırır.

**3.5.** Bölgü Komissiyası daşıyıcıların tələbatı və DANX-dan alınmış "İcazə" blanklarının sayı haqqında məlumatlar əsasında "İcazə" blanklarının bölgüsünü aparır. Bölgü Komissiyası bölgünü hər ayın sonuncu iş gününə qədər yekunlaşdırmalıdır.

**3.6.** "İcazə" blanklarına olan tələbat və onların istifadə səviyyəsindən asılı olaraq müəyyən "İcazə" blankları defisit və xüsusi defisit "İcazə" blankları elan edilə bilər. Defisit və xüsusi defisit "İcazə" blanklarının siyahısı DANX tərəfindən müəyyən edilir və bu barədə Bölgü Komissiyasına məlumat verilir.

**3.7.** Daşımaların real həcminin və tələbatın dəqiq müəyyən edilməsi məqsədilə daşıyıcılar istifadə edilmiş "İcazə" blanklarını istifadə edildikdən ən geci iki ay müddətində DANX-a geri qaytarmalıdırlar. Xüsusi defisit və defisit "İcazə" blanklarının istifadə olunmasını təsdiq etmək üçün istifadə olunmuş "İcazə" blankının surəti "İcazə" blankı verildikdən sonra 20 gün ərzində mümkün kommunikasiya vasitələrindən istifadə etməklə DANX-a təqdim olunmalıdır.

**3.8.** Bölgü Komissiyası növbəti ayın bölgüsünün aparılmasında daşıyıcının real tələbatının müəyyən edilməsində istifadə edilərək geri qaytarılmış "İcazə" blankları haqqında DANX-da formalaşan məlumatlara əsaslanır. Bölgü zamanı 1 ədəd "İcazə" blankı ayrılmış daşıyıcı həmin sənədi qanuni formada istifadə etməklə geri qaytararsa növbəti bölgüdə həmin daşıyıcının payı ona ayrılan "İcazə" blanklarının sayı 5-ə çatana qədər hər dəfə bir "İcazə" blankı qədər artırılır. Daşıyıcının rəqəmi 5-ə çatdıqdan sonra isə bu Reqlamentə uyğun bazar payı əmsalı tətbiq edilir.

**3.9.** Bölgü Komissiyası "İcazə" blanklarından səmərəli istifadənin təşkili, Azərbaycan beynəlxalq avtomobil daşıyıcılarının ümumi maraqlarının qorunması və bazarda inhisarçılıq meyllərinin qarşısının alınması məqsədilə bölgü zamanı daşıyıcıların istifadəsindəki beynəlxalq daşımalar həyata keçirmək üçün mövcud olan avtonəqliyyat vasitələrinin sayını, əvvəlki dövrlərdə istifadə olunmuş "İcazə" blanklarının sayını, daşıyıcı tərəfindən pozuntu ilə istifadə olunmuş "İcazə" blanklarının sayını, "İcazə" blankının daşıyıcıda qalan qalıq sayını, uzunmüddətli daşımaların həyata keçirilməsi üçün bağlanmış müqavilələri, daşımanın həyata keçirilməsi üçün tərtib edilmiş beynəlxalq nümunəli əmtəə-nəqliyyat qaiməsini (CMR) və digər təsdiqedici sənədləri, eləcə də beynəlxalq daşımalar bazarında daşıyıcının bazar payını əsas meyarlar kimi müəyyənləşdirəcəkdir.

**3.10.** "İcazə" blanklarının bölgüsü nəqliyyat vasitələrinin sayı əsasında aparıldıqda bölgüdə iştirak edən daşıyıcıların istifadəsində olan nəqliyyat vasitələrinin sayı və bölgüyə çıxarılan "İcazə" blanklarının sayı əsas götürülür. Hər bir "İcazə" blankı növü üzrə bölgüyə çıxarılan "İcazə" blanklarının sayı həmin "İcazə" blanklarının bölgüsündə iştirak edən daşıyıcılara məxsus nəqliyyat vasitələrinin sayına bölünür və bir nəqliyyat vasitəsinə düşən "İcazə" blankının sayı hesablanır. Bundan sonra bir nəqliyyat vasitəsinə düşən "İcazə" blankının sayı hər bir daşıyıcı üzrə onların nəqliyyat vasitələrinin sayına vurularaq hər bir daşıyıcı üçün bölüşdürülən "İcazə" blankının sayı müəyyən edilir.

**3.11.** Daşıyıcıların bazar payı "İcazə" blanklarının bölgüsü aparılan tarixə daşıyıcının pozuntusuz istifadə etdiyi "İcazə" blanklarının sayının bütün daşıyıcılar tərəfindən istifadə edilmiş "İcazə" blanklarının sayına nisbəti kimi hesablanır. Bazar payı metodu əsasında bölgü aparılarkən bölgüyə çıxarılan "İcazə" blanklarının sayı daşıyıcının bazar payına vurulur və hər bir daşıyıcı üçün bölgü payı hesablanır. Bazar payı metodu əsasında bölüşdürülən "İcazə" blankalarının tam istifadə edilməsini sübut edən daşıyıcılar üçün bölgü ilə müəyyən edilmiş "İcazə" blanklarının sayına həmin sayın 10%-i miqdarında əlavə "İcazə" blankı bölünür.

**3.12.** Beynəlxalq daşımalar bazarında inhisarçılıq meyllərinin qarşınsını almaq üçün bazar payı metodu əsasında bölgü aparılarkən daşıyıcının bazar payı 20%-dən artıq ola bilməz.

**3.13.** İlk dəfə müraciət edən daşıyıcı üçün bölgü aparılarkən tarixi statistika nəzərə alınmaqla 1 nəqliyyat vasitəsinə düşən "İcazə" blankının sayı və daşıyıcılara bölüşdürüləcək "İcazə" blankının maksimum həddi DANX ilə Bölgü Komissiyası arasında razılaşdırılır.

**3.14.** Qeyri-defisiti ikitərəfli/tranzit daşımalar üçün "İcazə" blanklarının bölgüsü zamanı daşıyıcıya məxsus nəqliyyat vasitələrinin qeyd olunan istiqamət üzrə edə biləcəyi mümkün maksimum reys sayları nəzərə alınır. Daşıyıcı tərəfindən ay ərzində Rusiya və Türkiyə istiqamətinə maksimum 2, İran və Gürcüstan istiqamətinə maksimum 3, digər ölkələrə 1.5 reys edə biləcəyi qəbul edilir.

**3.15.** Xüsusi defisit "İcazə" blanklarının bölgüsü konkret fakt əsasında daşımanın həyata keçirilməsi üçün tərtib edilmiş beynəlxalq nümunəli əmtəə-nəqliyyat qaiməsinin (CMR) və digər təsdiqedici sənədlərin əsasında aparılır.

**3.16.** "İcazə" blanklarının bölgüsü aparılarkən daşıyıcı üçün bölüşdürülən "İcazə" blanklarının sayı onun sifariş etdiyi "İcazə" blanklarının sayından çox olduqda daşıyıcıya sifariş etdiyi qədər "İcazə" blankı verilir. Bunun nəticəsində artıq "İcazə" blankları qalarsa onların bölgüsünün cari, yaxud növbəti bölgülərdə aparılması DANX ilə razılaşdırılır.

**3.17.** Bölgünün aparılması zamanı alınan say tam ədədlə ifadə olunur və bu zaman riyazi yuvarlaqlaşdırma metodundan istifadə olunur.

**3.18.** Bölgü Komissiyası tərəfindən bölgüsü aparılmış, lakin daşıyıcı tərəfindən DANX-dan alınmamış "İcazə" blankları növbəti ayların bölgüsünə daxil edilir.

**3.19.** Hər bir daşıyıcı üçün Rusiya üçüncü ölkəyə/ölkədən (məhdudiyyətsiz) "İcazə" blanklarının bölgü sayı müəyyən edilərkən ona verilən Rusiyaya açıq BNF icazələrininin sayına 0.85-1 əmsal tətbiq edilməklə hesablanan say qədər azaldılır.

**3.20.** Beynəlxalq avtomobil daşımaları bazarında inhisarçılıq və sui-istifadə meyllərinin qarşısının alınması üçün daşıyıcıya verilmiş "İcazə"lərin daşıyıcıların özləri tərəfindən digər daşıyıcılara ötürülməsi qadağandır və pozuntu kimi qəbul edilir.

**3.21.** Bölgü Komissiyası "İcazə" blanklarının bölgüsü zamanı "İcazə" blanklarının istifadəsi ilə bağlı pozuntulara yol verən daşıyıcılar üçün müəyyən edilmiş bölgü sayını qəbul etdiyi qərarı ilə azalda bilər. Daşıyıcı tərəfindən bir bölgünün qüvvədə olduğu dövr ərzində pozuntuya yol verilirsə daşıyıcı üçün müəyyən edilmiş bölgü sayı 30%, iki ardıcıl bölgünün qüvvədə olduğu dövr ərzində pozuntuya yol verilirsə daşıyıcı üçün müəyyən edilmiş bölgü sayı 60% azaldılır. Daşıyıcı tərəfindən üç ardıcıl bölgünün qüvvədə olduğu dövr ərzində pozuntuya yol verilirsə daşıyıcı üçün müəyyən edilmiş bölgü sayı ləğv edilir və o növbəti 2 bölgüyə buraxılmır. Bir daşıyıcıya məxsus nəqliyyat vasitəsinin əvvəlcədən razılaşdırılmadan digər daşıyıcının istifadəsinə keçməsi "İcazə blankı"nın ötürülməsi kimi qəbul edilir və pozuntu kimi qeydiyyata alınır. "İcazə" blankının istifadə olunduğu nəqliyyat vasitəsi daşıyıcı tərəfindən təqdim olunmuş nəqliyyat vasitələri siyahısında olmadığı təqdirdə "İcazə blankı"nın ötürülməsi kimi qəbul edilir və pozuntu kimi qeydiyyata alınır.

**3.22.** "İcazə" blankı verilmiş daşıyıcıya məxsus dartıcının hər hansı texniki nasazlıq səbəbindən digər daşıyıcıya məxsus dartıcı ilə əvəz edilməsi zərurəti yaranarsa, bu halın pozuntu (digər daşıyıcıya ötürülmə) kimi qeydiyyata alınmaması məqsədilə daşıyıcı tərəfindən bu hal baş verdiyi andan etibarən 1 (bir) iş günü ərzində müvafiq izahat DANX-a və Bölgü Komissiyasına təqdim olunmalıdır.

**3.23.** Daşımalar bazarının çevikliyi nəzərə alınaraq daşıyıcılar bölgü tarixlərindən kənar "İcazə" blanklarının verilməsi ilə bağlı Bölgü Komissiyasına müraciət edə bilərlər. Bu hallarda Bölgü Komissiyasının sədri ümumiləşdirilmiş sifarişlər əsasında DANX-a məktub ilə müraciət edə bilər. Bu zaman Reqlamentin tələbləri nəzərə alınmalı və daşıyıcıya verilmiş "İcazə" blankı növbəti bölgüdə daşıyıcıya ayrılacaq "İcazə" blanklarının sayı kənar müraciət zamanı verilmiş blankın sayı qədər azaldıla bilər.

## 4. BNF icazələrinin bölgüsü

**4.1.** Daşıyıcılar illik BNF icazələrinin bölgüsündə iştirak etmək üçün hər il oktyabr ayının ilk iş günündən sonuncu iş gününədək ərizə ilə müraciət edirlər.

**4.2.** İllik BNF icazələrinin bölgüsü hər il noyabr ayının ilk iş günündən başlayaraq aparılır və noyabr ayının sonuna kimi başa çatdırılır.

**4.3.** Ərizədə daşıyıcının adı VÖEN-i, eləcə də illik BNF icazılərinin növü va onların sifariş edilən sayı göstərilir.

**4.4.** Ərizəyə həmçinin nəqliyyat vasitələrindən istifadə hüququnu təsdiq edən sənədlər, onların ekoloji göstəricilərini təsdiq edən sənədlər, eləcə də sürücülər ilə ən azı 3 ay əvvəldən bağlanmış əmək müqaviləsini təsdiq edən Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin informasiya sistemindən çıxarışlar təqdim edilir.

**4.5.** İllik BNF "İcazə"lərinin bölgüsü ilk növbədə Beynəlxalq Nəqliyyat Forumunun təsdiq etdiyi və Azərbaycan Respublikasının qoşulduğu Keyfiyyət Xartiyasının (bundan sonra Keyfiyyət Xartiyası) tələblərinə daha yüksək səviyyədə cavab verən daşıyıcılara üstünlük verilməklə yerinə yetirilir.

**4.6.** Mülkiyyətində (balansında) və ya istifadəsində (icarə və ya digər istifadə hüququ ilə) müvafiq ekoloji göstəricilərə cavab verən avtonəqliyyat vasitələri olan daşıyıcılar BNF-nin illik "İcazə"lərinin bölgüsündə ilk növbədə iştirak edirlər.

**4.7.** BNF icazələrinin bölgüsündə Keyfiyyət Xartiyasının digər tələbləri də tətbiq edilə bilər.

**4.8.** Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələrinin ekoloji göstəricilərinə və sayına uyğun olaraq 4.5 və 4.6-cı bəndin tələblərinə cavab verən daşıyıcılar arasında bölgü aşağıdakı qaydada həyata keçirilir:

**4.8.1.** Daşıyıcılar arasında bölgüsü aparılacaq hər bir növ üzrə BNF icazələrinin sayı DANX tərəfindən Bölgü Komissiyasına bildirilir;

**4.8.2.** Bölgü Komissiyası tərəfindən ekoloji göstəricilərdən asılı olaraq neçə ədəd nəqliyyat vasitəsinə bir ədəd müvafiq BNF icazəsinin verilməli olduğu müəyyən edilir;

**4.8.3.** Hər bir daşıyıcının müvafiq ekoloji göstəricilərə uyğun nəqliyyat vasitələrinin sayı 4.7.2-ci yarımbənd ilə müəyyən edilmiş saya bölünərək ona münasibətdə müvafiq BNF icazələrinin bölgü sayı müəyyən edilir.

**4.9.** 4.6-cı bəndə uyğun olaraq bölgü aparıldıqdan sonra yerdə qalan daşıyıcılar arasında BNF icazələrinin bölgüsü aşağıdakı qaydada həyata keçirilir:

**4.9.1.** Daşıyıcılar arasında bölgüsü aparılacaq hər bir növ üzrə BNF icazələrinin sayı DANX tərəfindən Bölgü Komissiyasına bildirilir;

**4.9.2.** Bölgü Komissiyası tərəfindən ekoloji göstəricilərdən asılı olaraq neçə ədəd nəqliyyat vasitəsinə bir ədəd müvafiq BNF icazəsinin verilməli olduğu müəyyən edilir;

**4.9.3.** Hər bir daşıyıcının müvafiq ekoloji göstəricilərə uyğun nəqliyyat vasitələrinin sayı 4.8.2-ci yarımbənd ilə müəyyən edilmiş saya bölünərək ona münasibətdə müvafiq BNF icazələrinin bölgü sayı müəyyən edilir.

**4.10.** Bölgü zamanı alınan nəticə riyazi hesablamalara uyğun yuvarlaqlaşdırılır və saylar tam ədədlə ifadə olunur .

**4.11.** Bölgü Komissiyası tərəfindən aparılan bölgünün nəticələri protokollaşdırılır və DANX-a təqdim olunur.

**4.12.** Bölgü Komissiyası tərəfindən aparılmış bölgünün nəticələri növbəti ilin yanvar ayının 15-dək qüvvədə olur.

**4.13.** Yanvar ayının 15-dək götürülməyən BNF icazələri Bölgü Komissiyası və DANX tərəfindən müəyyən edilən tarixdə bölüşdürülür. Bölgü zamanı Keyfiyyət Xartiyasınının tələblərinə daha çox cavab verən və daha yüksək ekoloji göstəricilərə malik avtonəqliyyat vasitələrinə malik olan daşıyıcılara üstünlük verilir.

**4.14.** ABADA BNF "İcazə"lərinin istifadəsi ilə bağlı daşıyıcılar arasında monitorinqlər aparır və hər rübün sonunda monitorinqlər nəticəsində ümumiləşdirilmiş məlumatları Bölgü Komissiyasına təqdim edir.

**4.15.** Bölgüyə uyğun olaraq daşıyıcıya verilən BNF icazəsinin digər daşıyıcıya verilməsi qadağandır və belə hala yol verən daşıyıcı növbəti ilin BNF icazələrinin bölgüsünə buraxılmır.

## 5. Yekun müddəalar

**5.1.** Bu Reqlamentin heç bir müddəası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin hər hansı səlahiyyətinin üçüncü şəxslərə ötürülməsi kimi təfsir edilə bilməz.

**5.2.** Bu Reqlamentin qüvvədə olma müddəti Memorandumun qüvvədə olma müddəti ilə məhdudlaşır.

**5.3.** Bu Reqlamentə dəyişiklik Tərəflərin qarşılıqlı razılığı ilə edilə bilər. Reqlamentə dəyişikliklə bağlı təklif alan Tərəf həmin təklifi 5 iş günü ərzində dəyərləndirərək qarşı Tərəfə müvafiq bildiriş təqdim etməlidir.

**Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti adından**

**Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi**

**Anar Rzayev**

________________________
**(imza)**

**Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası adından**

**Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyasının Prezidenti**

**Həbib Həsənov**

________________________
**(imza)**